AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyası.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 36 (1436), 24 - 30 sentyabr 2019-cu il*

*Qəzet 2001-ci ildən çıxır.*



## Bakıda keçirilən bədii gimnastika üzrə dünya çempionatına yekun vurulub

### Bədii gimnastlarımız Tokio-2020 Olimpiadasına lisenziya əldə ediblər

Bakıda bədii gimnastika üzrə Tokio-2020 Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyan 37-ci dünya çempionatına yekun vurulub. "Nağıllar gerçəkləşəcək" devizi altında təşkil olunan çempionatda dünyanın 61 ölkəsindən 300-dən artıq gimnastın iştirakı ilə keçirilən çempionatda 9 dəst medal sahibini tapıb. Azərbaycan gimnastı Zöhrə Ağamirova və qrup komandası Tokio-2020 Olimpiadasına lisenziyanı təmin edib.

Azərbaycanı dünya çempionatında 9 gimnastımız -Zöhrə Ağamirova, Veronika Qudis, Yelizaveta Luzan və Məryəm Səfərova, qrup hərəkətlərində isə Ayşən Bayramova, Diana Əhmədbəyli, Aliyə Paşayeva, Zeynəb Hümmətova və Darya Sorokina təmsil edib.

*(ardı 2-ci səhifədə)*

## İki güləşçimiz Tokio-2020 Olimpiadasına lisenziya əldə edib

Qazaxstanın Nur-Sultan şəhərində keçirilən güləş üzrə dünya çempionatına yekun vurulub. Dünya çempionatında 100-dən çox ölkədən 900 güləşçi 30 dəst medal uğrunda mübarizə aparıb. Tokio-2020 Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyan çempionatda güləşçilər 108 Olimpiya vəsiqəsi uğrunda mübarizə aparıblar. Azərbaycan milli komandası yarışları 6 medalla başa vurub.

Qadın güləşi üzrə milli komandamızın lideri Mariya Stadnik Azərbaycanın idman tarixinə düşüb. Dünya çempionatında qızıl medal qazanan Stadnik (50 kq) karyerasında ikinci dəfə bu titula sahib olub. Xanım güləşçimiz 10 illik (2009) fasilədən sonra ikinci dəfə dünya çempionu adını qazanıb. O, Azərbaycanın idman tarixində ikiqat dünya çempionu olan ilk qadın güləşçidir. Azərbaycanda güləş idmanının tarixində yunan-Roma pəhləvanı Fərid Mansurov iki, sərbəst güləşçimiz Hacı Əliyev isə üçqat dünya çempionu adını qazanıblar.

*(ardı 2-ci səhifədə)*




## Atletika üzrə yığmamız dünya çempionatında iştirak edəcək

Sentyabrın 24-26-da Qətərin paytaxtı Dohada Beynəlxalq Atletika Federasiyasının 52-ci Seçki Hesabat Konqresi keçiriləcək. Konqresdə Azərbaycan Atletika Federasiyasının prezidenti Çingiz Hüseynzadə və federasiyanın baş katibi Məhərrəm Sultanzadə iştirak edəcək.

Tədbirdən bir gün sonra atletika üzrə dünya çempionatına start veriləcək. Yarışda Azərbaycan yığma komandası da mübarizə aparacaq. Baş məşqçi Bəhruz Salehli, məşqçilər Ziyad Xəlfəyev və Artyom Rubankonun rəhbərliyi altında Nazim Babayev, Aleksis Kopello (üç təkanla tullanma), Evans Kiplaqat (marafon qaçışı) və Anna Skidan (çəkicatma) qüvvəsini sınayacaqlar.

Ümumilikdə 11 gün davam edəcək çempionatda 209 ölkədən 1900-dək idmançının iştirak edəcəyi gözlənilir.

## Azərbaycanlı hakim Olimpiya Oyunlarına təyinat alıb

Ağırlıqqaldırma üzrə beynəlxalq dərəcəli hakim Vahid Nəzərov Tokio-2020 Yay Olimpiya Oyunlarda iştirak edəcək. 60 yaşlı mütəxəssis 2020-ci ilin iyulun 24-dən avqustun 9-dək keçiriləcək XXXII Yay Olimpiya Oyunlarında hakimlər briqadasında yer alacaq. O, Beynəlxalq Ağırlıqqaldırma Federasiyasının 4 illiyin ən möhtəşəm yarışında ədaləti qoruyacaq 20 hakimdən biri olacaq. Bununla da Vahid Nəzərov Olimpiadada ikinci sınağına çıxacaq.

Xatırladaq ki, təcrübəli mütəxəssis bundan əvvəl London-2012 Yay Olimpiya Oyunlarında da ədaləti qoruyub. Təmsilçimiz həmçinin Sinqapur-2010 Yeniyetmələrin Yay Olimpiya Oyunlarında da eyni funksiyanı yerinə yetirmişdi.

Qeyd edək ki, həmyerlimiz hazırda Tailandın Pattaya şəhərində keçirilən dünya çempionatında münsiflər heyətinin üzvü və hakim-komissar kimi çalışır. Təcrübəli mütəxəssis yarış zamanı hakimlərin işinə qiymət verir. O, dünya çempionatında bu vəzifəni icra edən ilk azərbaycanlıdır.

## Olimpizm

### Tokioda atletika üzrə sınaq yarışları keçirilib

Tokio-2020 XXXII Yay Olimpiya Oyunlarına hazırlıq məqsədilə atletika üzrə sınaq yarışları keçirilib. Marafon yarışlarında 30 kişi və 10 qadın atlet iştirak edib. Sınaq yarışları İxo Namuki küçəsini və Meydzi Dzinqu Qayen parkını əhatə edib.

Tokio Olimpiadasında idmançıların istiyə düşməmələri üçün marafon yarışlarının səhər saatlarında təşkil edilməsi nəzərdə tutulub. Olimpiya Stadionundan start veriləcək marafon paytaxt Tokionun mərkəzi küçələrini, görməli yerlərini - İmperator sarayını, Zodzodzi məbədini, eləcə də Nixonbaşi körpüsünü əhatə edəcək.

Beynəlxalq Yüngül Atletika Federasiyasının prezidenti Sebastyan Koe marafonun marşrutu ilə bağlı seçimi yüksək qiymətləndirərək deyib: "Marafon yarışları Olimpiadanın proqramında yer alan atletika idman növü üçün əhəmiyyətlidir. Marafonun marşrutu idmançılara yeniliyi və müasirliyi bir arada cəmləşdirən Yaponiyanın gözəlliyindən zövq almağa və atletika azarkeşlərini sevindirməyə imkan verəcək".

Xatırladaq ki, Tokio-2020 XXXII Yay Olimpiya Oyunları iyulun 24-dən avqustun 9-dək keçiriləcək.

### III Qış Olimpiya Oyunlarının məşəli təhvil verilib

Afinada günəş şüalarından alovlandırılan Olimpiya məşəli 2020-ci ildə Lozannada keçiriləcək Yeniyetmələrin III Qış Olimpiya Oyunlarının təşkilatçılarına təhvil verilib.

Olimpiya məşəlinin alovlandırılması mərasimi "Panatinaikos" stadionunda təşkil olunub. Bura 1896-cı ildə ilk müasir Olimpiadanın keçirildiyi yerdir. Günəş şüalarını bir yerə toplayan parabolik güzgünün köməyi ilə Olimpiya məşəli yandırılıb. Daha sonra stadionda kiçik estafet keçən Olimpiya məşəli Lozanna-2020 Təşkilat Komitəsinin prezidenti, isveçrəli fristaylçı, üçqat dünya çempionu Virjini Fevrə təqdim edilib.

Yeniyetmələrin III Qış Olimpiya Oyunları 2020-ci ildə yanvarın 9-dan 22-dək Lozannada keçiriləcək.

### Avstraliya Olimpiadaya ev sahibliyi üçün namizədlik ərizəsini təqdim edib

Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Tomas Bax Avstraliya Parlamentinin nümayəndə heyətinin üzvləri ilə görüşüb.

Nümayəndə heyətinin rəhbəri xanım Anastasiya Palaşçuk 2032-ci ildə keçiriləcək Yay Olimpiya Oyunlarına Avstraliyanın ev sahibliyi ilə bağlı ölkəsinin namizədlik ərizəsini Tomas Baxa təqdim edib.

BOK prezidenti jurnalistlərə açıqlamasında Avstraliyada idmana və Olimpiya Hərəkatına böyük maraq olduğunu deyib: "Görüş maraqlı keçdi. Bizi maraqlandıran suallara cavab ala bildik. Bu Olimpiadanın insanlara, onların maraqlarına cavab verəcək bir idman tədbiri olacağına inanıram". Xatırladaq ki, 1956-cı ildə Avstraliyanın Melburn, 2000-ci ildə isə Sidney şəhərləri Olimpiya Oyunlarına ev sahibliyi edib. Həmin Olimpiadada 67 ölkənin təmsilçiləri mübarizə aparıblar.

## Anons

*Zamiq Əliyev: "Dostlarımı "dünya səhnələri"ndə görəndə qürur hissi keçirirəm"* Səh. 3

Olimpiya çempionumuz Beynəlxalq Olimpiya Komitəsində xatirə imzası çəkib Səh. 4

*Voleybol məşqçilərinə diplomlar təqdim olunub* Səh. 4

Teymur Rəcəbov dünya kubokunda növbəti mərhələyə yüksəlib Səh. 5

"Yarım əsrdən çoxdur ki, qorxaqlar hokkey oynamır" Səh. 6

Millimiz reytinqində mövqeyini qoruyub Səh. 6

*Transfer pəncərəsinin yeni sakinləri* Səh. 7

Gimnastika

# Bakıda keçirilən bədii gimnastika üzrə dünya çempionatına yekun vurulub

## *Bədii gimnastlarımız Tokio-2020 Olimpiadasına lisenziya əldə ediblər*

*(əvvəli 1-ci səhifədə)*

37-ci dünya çempionatının ilk qızıl medalını Rusiya gimnastı Yekaterina Seleznyova qazanıb. Gimnastın fərdi proqram üzrə halqa ilə final yarışlarındakı çıxışı hakimlər tərəfindən 23,500 xalla qiymətləndirilib. Çempionatın gümüş medalına 23,400 xalla İsrail təmsilçisi Linoy Aşram, bürünc mükafatına isə digər rusiyalı idmançı Dina Averina (23,350 xal) sahib olub. Fərdi proqram üzrə gürzlər və lentlə təsnifat yarışlarında gimnastlarımız Z.Ağamirova 18.700, V.Qudis 17.150, M.Səfərova isə 10.450 xal toplayıblar.



Çempionatın dördüncü günündə, sentyabrın 19-da bədii gimnastlar fərdi proqram üzrə gürzlər və lentlə təsnifat mərhələsində qüvvələrini sınayıblar. Həmin gün gürzlər, lentlə və komanda hesabında qaliblərin adlarına aydınlıq gəlib. Dina Averina fərdi proqramda gürzlərlə final yarışında hakimlərdən 23,800 xal alıb. Bu onun dünya çempionu adını qazanmasına yetərli olub. Çempionatın gümüş medalına 23,300 xalla İsrail təmsilçisi Linoy Aşram, bürünc mükafatına isə Ukrayna idmançısı Vlada Nikolçenko (22,350 xal) sahib olub.

Daha sonra fərdi proqramda lentlə final yarışlarında Rusiyanı təmsil edən Dina Averina, Yekaterina Seleznyova, israilli Linoy Aşram, Ukrayna gimnastı Vlada Nikolçenko, italiyalı Milena Baldassarri, Belarus idmançıları Anastasiya Salos, Alina Harnasko və ABŞ idmançısı Laura Zenq xalça üzərinə çıxıblar. Bu dəfə də Milli Gimnastika Arenasında fəxri kürsünün ən yüksək pilləsinə D.Averina qalxıb. Onun çıxışı hakimlər tərəfindən 21,800 xalla qiymətləndirilib. L.Aşram (20,750 xal) çempionatın gümüş, Y.Seleznyova (20,650) isə bürünc medalına sahib olub.

Azərbaycan idmançısı Zöhrə Ağamirova Bakının ev sahibliyi etdiyi bədii gimnastika üzrə 37-ci dünya çempionatının çoxnövçülük yarışlarının finalına yüksəlib və Tokio-2020 Olimpiadasına lisenziyanı təmin edib. 116 gimnastın mübarizə apardığı yarışda təmsilçimiz 60,050 xalla 21-ci olub və finala vəsiqə qazanıb. Yarışda ilk 26 yerdə qərarlaşan idmançılar finala adlayıblar. Hər ölkədən maksimum iki gimnast finalda gücünü sınayıb.

Komanda yarışlarının qalibi adını ümumilikdə 186,500 xal toplayan Rusiya komandası qazanıb. İsrail yığması 174,750 xalla dünya çempionatını ikinci pillədə başa vurub. Belarus kollektivi isə 168,550 xalla yarışın bürünc medalına layiq görülüb. Azərbaycan komandası 147,050 xalla dünya çempionatını 13-cü pillədə başa vurub.

Rusiya gimnastı Dina Averina lentlə yarışlarda 21,800 xalla fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. İsrailli Linoy Aşram 20,750 xalla gümüş medal qazanıb. İlk üçlüyü digər Rusiya gimnastı Yekaterina Seleznyova (20,650 xal) tamamlayıb.

37-ci dünya çempionatının çoxnövçülük yarışlarının nəticəsinə əsasən, rusiyalı əkiz bacılar Dina və Arina Averinalar dünya çempionatının ilk iki pilləsində qərarlaşıblar. D.Averina 91,400 xalla fəxri kürsünün ən yüksək pilləsinə qalxıb və üçqat dünya çempionu adını qazanıb. Onun bacısı 91,100 xalla gümüş medala sahib olub. İsrailli gimnast Linoy Aşram isə 89,700 xalla çempionatı üçüncü pillədə başa vurub. Azərbaycan gimnastı Zöhrə Ağamirova 78,725 xalla 16-cı olub.

Ümumilikdə, Dina Averina 37-ci dünya çempionatının beş medalını qazanıb. O, topla və gürzlərlə yarışlarda qızıl, halqa ilə mübarizədə isə bürünc medal əldə edib. Lentlə final yarışlarında fəxri kürsünün ən yüksək pilləsinə qalxan rusiyalı gimnast komanda yarışlarının da qalibi olub.

Yarışların sonuncu günündə qrup hərəkətləri komandaları arasında 3 halqa və 2 cüt gürzlə final yarışlarının qalibi müəyyənləşib. Rusiya komandası 29,450 xalla fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. İlk üçlüyü Yaponiya (29,400 xal) və İtaliya (29,200) millilləri tamamlayıb. Azərbaycan komandası 26,450 xalla çempionatı 7-ci pillədə başa vurub. Qrup komandamız Tokio-2020 Olimpiya Oyunlarına lisenziya qazanıb. Komandamız iki növ üzrə yarışlar nəticəsində 53.100 bal toplayıblar. Gimnastlarımız 5 top ilə hərəkətlərdə 26.700 xal, 3 halqa və 2 cüt gürzlərlə hərəkətlərdə 26.700 xal qazanıblar.

Beş topla yarışlarda isə Rusiya, Bolqarıstan, Yaponiya, Belarus, Ukrayna, İtaliya, İsrail və Çin komandaları xalça üzərinə çıxıblar. Dünya çempionu adını qazanan yaponiyalı gimnastların kompozisiyası hakimlər tərəfindən 29,550 xalla qiymətləndirilib. Bolqarıstan komandası 29,350 xalla gümüş, Rusiya (28,150) isə bürünc medala sahib olub.

* * *

Sentyabrın 22-də Bakıda keçirilən bədii gimnastika üzrə 37-ci dünya çempionatının təntənəli bağlanış mərasimi olub.

Mərasimdə Azərbaycan, Ukrayna və Bolqarıstanın qrup hərəkətləri komandaları, həmçinin gimnastımız Veronika Qudis kompozisiyalarını təqdim ediblər.

On dörd ildən sonra ölkəmizin bədii gimnastika üzrə dünya çempionatına yüksək səviyyədə ev sahibliyi etdiyini bildirən Azərbaycanın gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov deyib: “Yüksək rəqabət şəraitində keçən çempionatda gimnastların maraqlı çıxışlarını izlədik. Tokio-2020 Yay Olimpiya Oyunlarından əvvəl Bakıda təşkil olunan lisenziya xarakterli dünya çempionatı böyük əhəmiyyət daşıyırdı. Artıq idmançıların həyəcanı geridə qaldı. Dünya çempionatı cari il ölkəmizdə gimnastika üzrə keçirilən sonuncu beynəlxalq turnir idi. Növbəti irimiqyaslı yarışlarda görüşənədək”.

Beynəlxalq Gimnastika Federasiyasının (FİG) prezidenti Morinari Vatanabe deyib: “Nağıllar - hətta ən yaxşıları belə bitməlidir. Bir həftəlik yarışlardan sonra nağıl kitabımızı bağlamaq vaxtıdır. Bütün gimnastları gözəl çıxışlarına görə təbrik edirəm. Nağıl bəzi gimnastlar üçün Tokio-2020 Yay Olimpiya Oyunlarında davam edəcək. Azərbaycan Gimnastika Federasiyasına və dünya çempionatının yerli Təşkilat Komitəsinin üzvlərinə yüksək səviyyəli təşkilatçılığa görə minnətdarlığımı bildirirəm. Həmçinin gələcək nəslə gimnastika məşəlini ötürməyə kömək edən dünya çempionatının rəsmi səfiri Yana Batırşinaya da təşəkkürümü çatdırıram. Növbəti il Olimpiya Oyunlarının möcüzəsini yaşadan daha bir nağılı dinləmək üçün hamınızı Tokioda yenidən görməyə şad olarıq”, - deyə FİG-in prezidenti əlavə edib.

Sonra Marinari Vatanabe bədii gimnastika üzrə 37-ci dünya çempionatını bağlı elan edib.

Gənc gimnastımız Ceyla Əlizadə FİG-in bayrağını İsmayıl İsmayılova təqdim edib. Gənclər və idman nazirinin müavini bayrağı FİG prezidentinə verib. FİG-in prezidenti isə bayrağı dəfələrlə Avropa və dünya çempionu olan, Atlanta-1996 Yay Olimpiya Oyunlarının gümüş mükafatçısı Yana Batırşinaya təhvil verib.

Sonda dünya çempionatının ulduz səfiri, Əməkdar artist Miri Yusif məhz bu yarış üçün xüsusi yazılmış “Birinci ol” mahnısını ifa edib.



# İki güləşçimiz Tokio-2020 Olimpiadasına lisenziya əldə edib

*(əvvəli 1-ci səhifədə)*

Çempionata onaltıdabir finaldan başlayan Mariya Stadnik (50 kq) Nigeriya təmsilçisi Mi-essiney Mersi Genesisi, səkkizdəbir finalda hindistanlı Seemu Seemunu məğlub edib. Dörddəbir finalda Rusiya idmançısı Yekaterina Poleşuka qalib gələn idmançımız yarımfinala yüksəlməklə Tokio-2020 Yay Olimpiya Oyunlarına lisenziyanı təmin edib. Güləşçimiz yarımfinalda çinli Yanan Sunu 6:4 hesabı ilə məğlub edərək adını finala yazdırıb. O, finalda Rumıniya təmsilçisi Emiliya Alina Vuka 13:0 hesabı ilə qalib gələrək dünya çempionatının qızıl medalını qazanıb.

Olimpiya, dünya və Avropa çempionumuz Şərif Şərifov (97 kq) çempionata qələbə ilə başlayıb. Güləşçimiz təsnifat mərhələsində Koreya güləşçisini üstələyib. Olimpiya, Ukrayna güləşçisinə də gücünü göstərərək adını dörddəbir finala yazdırıb. Titullu pəhləvanımız ötən il dünya çempionatının dörddəbir finalında Aslanbek Alborova qalib gəlmiş Elizbar Odikadzeni məğlub edərək yarımfinala yüksəlib. Bununla Şərif Şərifov olimpiadaya lisenziyanı təmin edib. Yarımfinalda güləşçimiz Olimpiya və iki qat dünya çempionu Kayl Snaydərə də gücünü göstərib. Ş. Şərifov finalda Olimpiya çempionu, dəfələrlə dünya və Avropa çempionu olmuş Abdulrəşid Sadullayevlə bacarmayıb və yarışı gümüş medalla başa vurub.

Yığmamızın kapitanı Cəbrayıl Həsənov (79 kq) dünya çempionatına səkkizdəbir finaldan start verib. İdmançımız növbəti mərhələdə Ukrayna güləşçisinə qalib gələrək dörddəbir finala adlayıb. Bu mərhələdə yerli idmançıya da üstün gələn güləşçimiz yarımfinala vəsiqə qazanıb. Təcrübəli güləşçimiz slovakiyalı rəqibin də öhdəsindən gələrək ardıcıl ikinci dəfə dünya çempionatının finalında iştirak etmək hüququ qazanıb. Həlledici görüşdə ABŞ idmançısı Kayl Daykla üz-üzə gələn Cəbrayıl Həsənov rəqibinə uduzaraq növbəti dəfə gümüş medalı boynundan asıb.

Nur-Sultanda keçirilən dünya çempionatı 3 qat dünya çempionu Hacı Əliyev (65 kq) üçün uğursuz olub. Güləşçimiz ilk görüşündə Rusiya idmançısı Hacımurad Rəşidova məğlub olub. İdmançımız təsəlliverici görüşdən də məğlub ayrılıb.

Xatırladaq ki, çempionatda yunan-Roma güləşçilərimizdən Rafiq Hüseynov (82 kiloqram) gümüş, Eldəniz Əzizli (55 kiloqram) isə bürünc medal qazanıblar.

# *Mariya Stadnik: “Medal kolleksiyamda təkcə Olimpiya qızılı çatmır”*

Sentyabrın 18-də Nur-Sultanda keçirilən dünya çempionatında qızıl medal qazanmaqla ikiqat dünya çempionu olan Azərbaycan güləşçisi Mariya Stadnik KİV nümayəndələri ilə öz təəssüratlarını bölüşüb: “Qazaxıstana



qızıl medal üçün gəlmişdim. Hansısa rəqibin iştirak etməməsi anlayışı yoxdur. Güclü olmaq istəyirsənsə, ən güclüləri məğlub etməlisən. Çünki yalnız bu halda güclülərin güclüsü olursan. Hazırda medal kolleksiyamda əsas medal - Olimpiya qızılı çatmır. Qarşımdakı əsas hədəf Olimpiya Oyunlarının qızıl medalını qazanmaqdır. Olimpiadaya hələ bir il var. Bu müddət ərzində əzmlə çalışıb istəyimə nail olmağa çalışacağam”.

Qadın güləşində bürünc medalı Elis Manolova qazanıb. Mübarizəyə səkkizdəbir finaldan qoşulan E.Manolova (65 kq) hindistanlı rəqibi Kaur Navyotını məğlub edib. Avropa çempionu dörddəbir finalda Türkiyə güləşçisi Kadriye Aksoya da qalib gələrək yarımfinala yüksəlib. Finalın bir addımlığında Rusiya idmançısı İnna Trajukova ilə görüşdən məğlub ayrılan E.Manolova bürünc medal üçün güləşib. Təmsilçimiz üçüncü yer uğrunda görüşdə Bolqarıstan idmançısı Yuliana Yanevaya qalib gəlib.

Sənətçi idman, idmançı sənət haqqında

# Zamiq Əliyev:
# "Dostlarımı "dünya səhnələri"ndə görəndə qürur hissi keçirirəm"

*Bu yaxınlarda SSRİ idman ustası, Azərbaycan Respublikasının Əməkdar Bədən Tərbiyəsi və İdman xadimi Vahid Nəzərovun 60 illik yubileyi qeyd olundu. Yubilyarı təbrik edənlər arasında onun yaxın dostu Xalq artisti, məşhur tarzən Zamiq Əliyev də var idi. Bundan istifadə edərək həm dəyərli sənətkarımızı, həm də təcrübəli mütəxəssisi redaksiyamıza dəvət etdik. "Sənətçi idman, idmançı sənət haqqında" rubrikasının qonaqları, onlara ünvanlanan sualları səmimi cavablandırdılar.*



## "Özümü həmin insanların sırasında görürəm"

***- Zamiq müəllim, bildiyimizə görə idmana böyük marağınız var. Hansı idman növünü daha çox sevirsiniz?***

- Mən incəsənət nümayəndəsi olsam da, idmana böyük həvəsim var. Əsasən də futbolu sevirəm. Mənim atam da futbolu çox sevirdi. İndikindən fərqli olaraq, biz o vaxt dünya futbolunu deyil, sovet futbolunu izləyirdik. Atam "Neftçi" komandasının azarkeşi idi. Yadıma gəlir ki, həmin vaxtlar ürəyindən əməliyyat olunmuşdu. Həyəcanlandığı üçün oyunlara evdə oturub, baxa bilmirdi. "Neftçi"nin oyunu başlayanda, həyətə çıxırdı. Hər 15 dəqiqədən bir, pəncərəni döyüb, hesabı soruşurdu. Yəni çox həyəcanlanırdı. Heç kimə sirr deyil ki, futbol komanda idman növüdür. Bütün dünya bu idman növünün aşiqidir. Mən də bu dünyanın sakini olduğum üçün, özümü həmin insanların sırasında görürəm.

***- Futbolu bu qədər sevdiyiniz halda, yaxın dostunuzdan biri futbolçu deyil, ağırlıqqaldırma üzrə tanınmış mütəxəssis Vahid Nəzərovdur. Görünür, bu dostluq təsadüfi tanışlığın nəticəsində yaranıb.***

- Razıyam. Vahid müəllimlə dostluq əlaqələri təxminən 80-ci illərə təsadüf edir. Onunla qohumlarımdan birinin sayəsində tanış olmuşam. Sonralar isə Olimpiya kateqoriyalı güləş hakimi, Hicran Şərifovla tanış oldum. Bu tanışlıq qohumluq əlaqələrinə çevrildi. Hər ikisinə böyük hörmət bəsləyirəm. Məhz onların sayəsində idmana bir qədər də yaxınlaşdım. Mən həm Vahid Nəzərovun, həm də Hicran Şərifovun idmandakı və şəxsi həyatdakı uğurlarına görə çox sevinirəm. Hicran Şərifov 50 illik yubileyində məni Milli Olimpiya Komitəsinə dəvət etdi. Həmin tədbirdə iştirak etdim, ona ürək sözlərimi çatdırdım. Həm qohum, həm də dost kimi onun uğurlarına sevinməmək qeyri-mümkündür. Etiraf edim ki, Milli Olimpiya Komitəsinin mənzil-qərargahına daxil olarkən, oradakı idman ab-havasını görüb, böyük zövq alıram. Bu yaxınlarda isə həmin binada Vahid Nəzərovun 60 illik yubiley tədbiri keçirildi. Tədbirə dəvətlilər arasında mənim də adım var idi. Çıxış üçün söz veriləndə, ürəyimdən gələn xoş sözləri onun ünvanına çatdırdım. Vahid özünəməxsus xarakteri olan insanlardan biridir. Düzdür, bir müddət əvvəl onun səhhətində ciddi problemlər yaranmışdı. Hamımız ona görə çox narahat idik. Allaha çox şükür, artıq hər şey qaydasındadır. Bir daha qeyd edim ki, Vahid müəllim çox yaxşı insan və çox təcrübəli mütəxəssisdir. Mən əminəm ki, Vahid Nəzərov gələn il Tokioda keçiriləcək Olimpiya Oyunlarında hakim kimi ölkəmizi təmsil edəcək. Bir neçə gündən sonra o, dünya çempionatına yollanacaq. Hər şey Tailandda öz təsdiqini tapacaq. Yarışdan sonra olimpiadaya vəsiqə əldə edən hakimlərin arasında onun da yer alacağına inanıram. Vahid müəllimdən xoş xəbərlər gözləyirik. Bu gün dostlarımı musiqiçi dili ilə desəm, "dünya səhnələri"ndə görəndə qürur hissi keçirirəm.

***- Vahid müəllimin timsalında özünüz üçün hansı xarakteri müəyyənləşdirmisiniz?***

- Vahid Nəzərovu tanıyan insanların əksəriyyəti deyir ki, o, çox ötkəm insandır. Lakin elə insanların ürəyi çox yumşaq olur. Əgər bu insan öz haqqını tələb edirsə, bu, bəzi insanlarda qıcıq yaradır. Lakin sonradan insanlar onun haqlı olduğunu dərk edirlər. Vahid insanlara qarşı çox mülayimdir.

***- İdman və incəsənətin oxşar cəhətlərini nədə görürsünüz?***

- İdmanla incəsənət biri-biri ilə vəhdət təşkil edir. Güləşçilər yarış zalına cəngi sədaları altında çıxanda onlarda böyük ruh yüksəkliyi yaranır. Siz, cənginin zəhminə baxın ki, insanlarda necə hiss yaradır. Musiqilərimizdə də belədir, lirik notlar var, cəngavərlik musiqiləri var. Bu, eyni zamanda muğamlarımızda da öz əksini tapır. Məsələn, "Humayun" muğamı hüznlü janrdadır, "Segah" isə daha çox ürəyəyatımlıdır. "Çahargah", "Mahur" muğamları isə insanları sanki döyüşə ruhlandırır. İdmançıya da musiqinin təsiri məhz buradan gəlib. İdman ictimaiyyəti arasında musiqiyə həvəsi olan insanlar da çoxdur. Buna misal olaraq, Gənclər və İdman nazirinin müavini İsmayıl İsmayılovu qeyd edə bilərəm. O, tarda çox yaxşı ifa etməyi bacarır. Onunla bir neçə dəfə dostlar arasında musiqi məclislərində olmuşuq. Həmişə deyirdim ki, İsmayıl müəllim, Siz idmançısınız, musiqi aləmində nə işiniz var? Təbii ki, bütün bunlar incəsənətə, musiqiyə olan həvəsdən irəli gəlir. Hərdən idmançılara



paxıllığım tutur. İdmançılar uğur qazananda Azərbaycanın üçrəngli bayrağı dalğalanır, himnimiz səslənir. Lakin incəsənət adamlarında bu hal olmur. Biz nə qədər konsertlər versək, uğurlar qazansaq ölkəmizin himni səsləndirilmir. Bu hal məndə bir növ yaxşı mənada qısqanclıq yaradır. Ona görə də mən həmişə idmançıların uğuruna sevinirəm, onları alqışlayıram.

## "Uğur qazanmaq üçün zəhmət, iradə, səbr lazımdır"

***- Xalqın sevgisini qazanmaq istənilən sənət sahibi, xüsusilə sənətkar üçün böyük xoşbəxtlikdir.***

- 50 ildir ki, bu sənətdəyəm. Xalqın gözünün qarşısında inkişaf edərək bu zirvəyə gəlib çatmışam. Xalq səni qəbul edirsə, deməli, sən, həqiqətən də, xalq artistisən. Hər adam uğur qazana bilməz. Uşaq vaxtı tarzən olmağıma atam icazə vermirdi. Atam mənə deyirdi ki, sən Hacı Məmmədov, Əhsən Dadaşov olacaqsan? Deyirdim, xeyr. Deyirdi ki, bəs nəyə görə tarın arxasınca gedirsən? Yəni demək istəyirəm ki, bu gün heç kim, heç kimi əvəz etmir. Mən sadəcə olaraq, Zamiq Əliyev olaraq, musiqidə öz imzamı qoydum. Uğur qazanmaq üçün zəhmət, iradə, səbr lazımdır. Həmişə tələbələrimə də bunu aşılayıram. Həmçinin idman sahəsində də belədir.

***- İdmançı dostu olmaq sizdə hansı hissləri yaradır?***

- Əlbəttə. Mən necə ki, Xalq artisti adını alanda Vahid müəllim sevinirdi, eləcə də, onun uğurları mənə sevinc, qürur hissləri verir. Vahid Nəzərovla dost olduğum üçün qürur duyuram. Kənardan baxan insanlar soruşurlar ki, sən, doğrudan, Vahid Nəzərovla yaxın dostsan? Bütün bunlara sahib olmaq üçün birinci özün sağlam əqidəli insan olmalısan. Bəzən insanlar dostluq əlaqələrini təmənnada, maddiyyatda görürlər. Lakin bizdə bu belə deyil. Dostluğu gərək qazanasan.

***- Vahid Nəzərov həqiqəti bəzən bir qədər mübahisəli üslubda deyir. Onunla aranızda musiqi barədə mübahisəniz olurmu?***

- Vahid adından göründüyü kimi təkdir. Bizim Əliağa Vahidimiz də o vaxtı tək idi. O vaxtı onu bəyənmirdilər. Amma bu gün o, Azərbaycan ictimaiyyətinin qəlbindədir. Elə bir xanəndə yoxdur ki, Vahiddən bir qəzəl oxumasın. O, sübut etdi ki, Vahiddir, təkdir. Eləcə də, Vahid Nəzərov ağırlıqqaldırma idman növündə təkdir. Hərdən maşınla yol gedərkən zəng edir ki, Hacı, eşidirsən, mən nəyə qulaq asıram? Eşidirəm ki, mənim ifalarıma qulaq asır. Bu, sevgidən, hörmətdən, dostluğa verilən dəyərdən irəli gəlir.

***- Özünüz, ifa etdiyiniz musiqilərə qulaq asırsınız?***

- O qədər də yox. Mənim tarda həm solo ifalarım, həm də bəstələdiyim mahnılar var. Həmin mahnıları bu gün gündəmdə olan sənətkarlarımız ifa ediblər. Yəni hərdən dinləyirəm.

*Xalq artisti Zamiq Əliyevlə müsahibə zamanı kənardan söhbəti izləyən Vahid Nəzərova da suallarımızı ünvanladıq.*

***- Vahid müəllim, Siz necə, təkcə Zamiq Əliyevə qulaq asırsınız?***

- Xeyr, yaxşı musiqini, tanınmış müğənniləri dinləyirəm. Lakin, çox vaxt Zamiq Əliyevin ifalarına qulaq asıram. Bununla stress və yorğunluqdan yaxa qurtarmağa çalışıram. Mən özüm də musiqi ilə məşğul olmuşam. Musiqinin, xüsusilə, mükəmməl musiqinin nə olduğunu yaxşı bilirəm. Bu, mənim musiqi təhsilimin olması ilə də əlaqədardır. 5 il musiqi məktəbində qarmon dərsinə getmişəm. Ümumiyyətlə, bizim ailədə musiqiyə böyük hörmət var. Zamiq müəllimlə və onun sənəti ilə çoxdan tanışıq. Tez-tez Zamiq müəllimin ifa etdiyi musiqiləri avtomobilimdə və evimdə dinləyirəm.

# Vahid Nəzərov:
# "Musiqi məktəbindən qaçıb, zala gedirdim"

***- Qeyd etdiniz ki, bir müddət musiqi ilə məşğul olmusunuz. Maraqlıdır, musiqidən ağırlıqqaldırmaya necə keçdiniz?***

- Qeyd etdiyim kimi, mən Səttar Bəhlulzadə Adına Mədəniyyət Sarayında musiqi məktəbinə gedirdim. Mənim müəlliməm bəstəkar, ilk qadın tarzən Hökümə Nəcəfova idi. O, mənə "solfecio"dan dərs deyirdi. Musiqi məktəbinin yaxınlığında idman zalı var idi. Mən də tez-tez qaçıb, həmin zala gedirdim. Beləcə, məndə ağırlıqqaldırma idman növünə maraq yarandı. Hətta atam buna görə bir dəfə məni cəzalandırmışdı. Buna baxmayaraq, mən ağırlıqqaldırma idman növü üzrə məşqlərə davam etdim. Sonda əmilərim atama dedilər ki, onun həvəsi musiqiyə yox, ağırlıqqaldırmayadır, imkan ver, nəyə həvəsi var, o sahə ilə də məşğul olsun. Beləcə, ağırlıqqaldırma idman növünə olan həvəs bu idman növünün arxasınca getməyimə səbəb oldu.




***- İdmançı ilə incəsənət adamları bir araya gələndə söhbət əsasən nə ilə bağlı olur?***

- Həm idmandan, həm də incəsənətdən söhbət açırıq. Hərə öz sahəsi üzrə danışır. Hərdən mən də incəsənət barədə öz fikirlərimi bildirirəm. Mənim incəsənət sahəsi ilə məşğul olan yetərincə dostlarım var. Xalq artisti, aktyor Rafiq Əzimov da mənim bağ qonşumdur. İncəsənət adamı ilə söhbət edəndə, musiqiyə qulaq asanda insanda ruh yüksəkliyi yaranır, yorğunluq çıxır.

***- Bir yerdə olarkən mahnı ifa edirsinizmi?***

- Xeyr, hələ ki, belə bir hadisə olmayıb. Lakin mənim 50 illik yubileyimdə Zamiq müəllim bizi feyzyab edib. İnşallah, nə vaxtsa Zamiq müəllimlə birlikdə bir mahnı da ifa edərik.

***- Vahid müəllim, sonuncu dəfə nə vaxt qarmonda ifa etmisiniz?***

- Evdə boş vaxtım olan kimi qarmonda özüm üçün ifa edirəm. Yəni idmanla məşğul olsam da, musiqidən tam uzaqlaşmamışam. Hərdən qarmonu dilləndirib, keçmiş günləri yada salmağa çalışıram. Həyat, doğrudan da, gözəldir. Onu gərək ürəyincə, örnək olaraq yaşayasan. Bax onda, yaşın 60, 70 ya da 100 olması şərt deyil. Bir sözlə, gərək, həyatdan və yaşamaqdan zövq alasan.

*Anar Əhmədov,*
*Azər Əlizadə*

## *Olimpiya çempionumuz Beynəlxalq Olimpiya Komitəsində xatirə imzası çəkib*



Olimpiya çempionu Fərid Mansurov İsveçrənin Lozanna şəhərində Beynəlxalq Olimpiya Komitəsinin yeni istifadəyə verilmiş inzibati binasında Olimpiya çempionlarına həsr olunmuş fəxri lövhədə imzasını çəkib. Fəxri lövhə hər bir Olimpiya çempionunun Beynəlxalq Olimpiya Komitəsini ziyarət etdiyi zaman öz nailiyyətlərini əbədiləşdirməyə imkan yaradır.

Olimpiya çempionu, Gənclər və İdman Nazirliyinin İdman idarəsinin rəisi Fərid Mansurov Avropa Milli Olimpiya Komitələrinin Olimpiya Oyunlarına Hazırlığına dair Regional Forumunda iştirak edib. Tədbir Beynəlxalq Olimpiya Komitəsinin və Beynəlxalq Olimpiya Komitəsi Olimpiya Həmrəyliyi Fondunun birgə təşkilatçılığı əsasında keçirilib. Proqrama əsasən, Tokio-2020 Olimpiya Oyunlarının akkreditasiya, idman qurğuları, nəqliyyat, yaşayış, tibbi xidmət, antidopinq və digər sahələrini əhatə edir.

## Daşkənd Qran-prisindən 2 medal

Özbəkistanın paytaxtı Daşkənddə cüdo üzrə Qran-pri turniri keçirilib.

Dünyanın 70 ölkəsindən 421 cüdoçunun iştirak etdiyi yarışda Azərbaycan idmançıları da qüvvələrini sınayıblar.

Turnirin ilk günündə milli komandamız aktivinə 1 medal yazdırıb. Qadınlar arasında 48 kq çəki dərəcəsində mübarizə aparan cüdoçumuz Leyla Əliyeva Rumınıya, Fransa, Almaniya və Hindistan idmançılarını məğlub edərək finala yüksəlib. Leyla Əliyeva həlledici qarşılaşmada rusiyalı Sabina Giliazova ilə üz-üzə gəlib. İdmançımız rəqibinə məğlub olaraq Qran-pridə gümüş medal qazanıb. Kişilərin yarışında İbrahim Əliyev (66 kq) isə bürünc medal uğrunda görüşdə Özbəkistan təmsilçisi Sərdar Nurillayevə uduzaraq 5-ci yeri tutub.

Beynəlxalq yarışın son günü də Azərbaycan millisi üçün uğurlu olub. Belə ki, kişilər arasında 100 kq çəki dərəcəsində mübarizə aparan təmsilçimiz Zelim Kotsoyev Ukrayna, ABŞ və Belarus cüdoçularını məğlub edərək, finala vəsiqə qazanıb. Həlledici qarşılaşmada rusiyalı Kazbek Zankişiyevə uduzan idmançımız gümüş medala layiq görülüb.

Beləliklə, Azərbaycan millisi Daşkənd turnirini iki gümüş medalla başa vurub.





## Kayseri turunda 3-cü yer

Türkiyədə Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) 2.2 kateqoriyalı "Tour of Kayseri" yarışı başa çatıb. 2 mərhələdən ibarət velotur yığma komandamızın üzvü Elçin Əsədovun ümumi təsnifatda 3-cü yeri tutması ilə yadda qalıb.

Bəhreynin "VIB Sports" kontinental komandasının heyətində mübarizə aparan idmançımız 132 km-dən ibarət 1-ci mərhələdə finiş xəttini 11-ci, 147 km-lik 2-ci yarış günündə isə 3-cü keçib. Bu nəticə Elçin Əsədova ümumi təsnifatda Kayseri turunu 3-cü pillədə başa vurmağa imkan verib. Həm mərhələ, həm də ümumi təsnifat üçüncülüyü ölkəmizin aktivinə Tokio-2020 Yay Olimpiya Oyunlarına daha 26 xal (1+25) əlavə olunması ilə nəticələnib.

Sentyabrın 27-29-da Elçin Əsədov "VİB Sports"un, Samir Cəbrayılov, Musa Mikayılzadə, Mahmud Məmmədov və Mikayıl Səfərli dördlüyü isə baş məşqçi Əbülfəz Məmmədovun rəhbərliyi altında yığma komandamızın heyətində Türkiyənin Konya şəhərində keçiriləcək 2.2 kateqoriyalı "Tour of Mevlana" yarışında iştirak edəcək. 3 mərhələdən ibarət bu yarış da Tokio Olimpiadasına lisenziya xalları verəcək.

Qeyd edək ki, Beynəlxalq Velosipedçilər İttifaqının reqlamentinə əsasən, olimpiadaya lisenziya xalları verən yarışlar 2019-cu ilin oktyabr ayının 22-dək davam edəcək.



## Milli Paralimpiya Komitəsinin rəhbəri Azərbaycan Amerika Ticarət Palatasının tədbirində çıxış edib

Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) prezidenti İlqar Rəhimov Azərbaycan Amerika Ticarət Palatasının (AMCHAM) tədbirində çıxış edib. AMPK-dən verilən məlumata görə, İlqar Rəhimov Azərbaycanda fəaliyyət göstərən iş adamlarına Milli Paralimpiya Komitəsi barədə məlumat verib. O, Paralimpiya Komitəsinin 1996-cı ildə yarandığını, bu illər ərzində Azərbaycanda əlilliyi olan şəxslərin ictimai hərəkatına çevrildiyini qeyd edib. "Bu günə qədər biz 6 paralimpiya oyunlarında iştirak etmişik. Azərbaycan kiçik ölkə olsa da, bizim 7 paralimpiya çempionumuz var. Onlardan ikisi ikiqat paralimpiya çempionlarıdır. Bu da dünyada çox ciddi göstəricidir. Bizim işimiz Azərbaycanda inklüziv cəmiyyətin qurulmasına töhfə verməkdir. Bu istiqamətdə idman mühüm vasitələrdən biridir. Əlillərin cəmiyyətdə özlərinə yer tutmaq, öz hüquqlarını qorumaq və cəmiyyətin bərabərhüquqlu üzv olmaları üçün idmanla bərabər reabilitasiya xidmətlərində də çox ciddi çalışırıq", - deyə o əlavə edib. Çıxışdan sonra Milli Paralimpiya Komitəsinin rəqqasları Rəsul Zəkiyev və Diana Şahbazova əlil arabasında rəqs nümayiş etdiriblər.



## Voleybol məşqçilərinə diplomlar təqdim olunub

Sentyabrın 20-də Dərnəgül Voleybol Mərkəzində voleybol üzrə məşqçilərin texniki təlim kursunun bağlanış mərasimi keçirilib.

Sentyabrın 16-dan 20-dək keçirilən təlim kursu Beynəlxalq Olimpiya Komitəsinin Olimpiya Həmrəyliyi Fondunun, Beynəlxalq Voleybol Federasiyasının dəstəyi, Milli Olimpiya Komitəsinin və Azərbaycan Voleybol Federasiyasının təşkilatçılığı ilə baş tutub.

Nəzəri və praktiki hissədən ibarət olan təlim kursunu uğurla başa vuran məşqçiləri təltif etmək üçün Azərbaycan Voleybol Federasiyasının prezidentinin müşaviri Əbülfəz Hüseynov, Milli Olimpiya Komitəsinin İdman idarəsinin rəisi Həsənağa Rzayev, "Azərreyl" voleybol klubunun prezidenti Fərid Xəlilov, Azərbaycanda yerləşən Regional Voleybol İnkişaf mərkəzinin rəhbəri Nərgiz İsmayılova və təlimin müvafiq proqram üzrə beynəlxalq dərəcəli mühazirəçisi Dan İllie Girleanu dəvət olunub.

Layihənin əsas məqsədi beynəlxalq dərəcəli voleybol məşqçilərinin yetişdirilməsi, nəzəri və praktiki biliklərinin genişləndirilməsidir.

Layihədə Türkiyə, İran, Qazaxıstan, Kipr və Azərbaycandan ümumilikdə 30 məşqçi "Level 2" təlim kurslarına yiyələnmək üçün iştirak edib və hər bir iştirakçı proqramı uğurla başa vurub. Məşğələlər Beynəlxalq Voleybol Federasiyasının müvafiq proqram üzrə beynəlxalq dərəcəli mühazirəçisi tərəfindən keçirilib. Kursları uğurla başa vuran məşqçilər sertifikatllarla təltif olunublar.

Xatırladaq ki, Milli Olimpiya Komitəsi artıq bir neçə dəfə məşqçilərin bilik və bacarıqlarını artırmaq üçün voleybol, velosiped, badminton və digər idman növləri üzrə Beynəlxalq Olimpiya Komitəsinin Olimpiya Həmrəylik Fondunun və müvafiq Beynəlxalq İdman Federasiyalarının dəstəyi ilə kurslar həyata keçirib.

## *Sablyaçımız Plovdivdə gümüş medala layiq görülüb*



Bolqarıstanın Plovdiv şəhərində keçirilən sablya üzrə "Satellite" turnirinə yekun vurulub.

Qadın sablyaçıların şəxsi yarışında Anna Başta gümüş medal qazanıb. Qrup mərhələsində keçirdiyi 6 görüşü qalib başa vuran təmsilçimiz, uğurlu çıxışın davamını pley-off mərhələsində də gətirib. Sablyaçımız 1/16 finalda Bolqarıstan idmançısı Kalina Atanasovanı 15:8 hesabı ilə məğlub edib. A.Başta səkkizdəbir finalda türkiyəli rəqibi Nisanur Erbil üzərində 15:6 hesablı qələbə qazanıb. İdmançımızın dörddəbir finalda rəqibi Hindistan təmsilçisi Çadalavada Anandha olub. Gərgin keçən qarşılaşma qılıncoynadanımızın 15:13 hesablı qələbəsi ilə başa çatıb. A.Başta yarımfinalda bolqarıstanlı idmançı Yoana İliyevadan üstün olub (15:12). Həlledici final görüşündə Gürcüstan sablyaçısı Lika Jijieşviliyə 12:15 hesabla uduzan Anna Başta turniri ikinci sırada başa vurub.

Qrup mərhələsində 6 qələbə qazanan Valeriya Bolşakova isə turnirin dörddəbir final mərhələsinə kimi irəliləməyi bacarıb. İdmançımız ən güclü səkkizliyə yüksəlmək üçün türkiyəli rəqibləri Yasəmin Yeltekin (15:6) və Aylin Çakıra (15:4) qalib gəlib. V.Bolşakova dörddəbir finalda yarımfinalda Anna Baştanın üstələdiyi bolqarıstanlı Yoana İliyevaya 6:15 hesabı ilə məğlub olub. Digər qadın sablyaçılarımızdan Sevil Bünyatova və Səbinə Kərimova mübarizəni səkkizdəbir finalda dayandırıb. Qrup mərhələsini 4 qalibiyyətlə başa vuran Sevil Bünyatova onaltıdabir finalda sinqapurlu Cessika Şu Huiyə (15:7) qalib gəlsə də, növbəti görüşündə argentinalı Maurise Perezə uduzub (10:15). Qrup 5 qələbə ilə başa vuran Səbinə Kərimova isə onaltıdabir finalda Belaslava İvanovaya (Bolqarıstan) 15:10 hesabı ilə qalib gəlsə də, növbəti mərhələdə türkiyəli Selin Deniz Unludağa məğlub olub (10:15). Qadın sablyaçılarımızdan Aysel Əhədova da qrup səddini adlamağı bacarsa da, onaltıdabir finalda turnirin qalibi Lika Jijieşviliyə (Gürcüstan) 9:15 hesabı ilə uduzub.

Kişi sablyaçıların şəxsi yarışında Cavanşir Ağakişiyev qrupda 4 qələbə qazanmaqla pley-offa yüksəlib. Onaltıdabir finalda küveytli Bandar Alşamlanı 15:14 hesabı ilə məğlub edən Cavanşir, səkkizdəbir finalda bolqarıstanlı İvan Mandova uduzub (10:15).



# Azərbaycan karateçiləri uğurla yarışıblar

Sentyabrın 20-22-də İranın Urmiya şəhərində karate üzrə ənənəvi beynəlxalq turnir keçirilib.

Ümumi mükafat fondu 60 min avro olan 15-ci "Urmiya Open" turnirində 12 ölkəni təmsil edən 412 karateçi qüvvəsini sınayıb.

Yarışda iştirak edən Azərbaycan karateçiləri 2 qızıl, 1 gümüş və 3 bürünc medal qazanıb. Turnirin ilk günündə Ramil Baxşəliyev (14-15 yaşlı yeniyetmələr, - 52 kq) qızıl medala sahib olub. Azər Tapdıqlı (14-15 yaşlı yeniyetmələr, - 63 kq) gümüş, Ruslan Qafarlı (14-15 yaşlı yeniyetmələr, -57 kq) ilə Emin Namazov (14-15 yaşlı yeniyetmələr, kata) isə bürünc mükafat qazanıb.

Yarışın sonuncu günündə Hüseyn Hüseynzadə (16-17 yaşlı gənclər, -76 kq) qızıl, Tural Balcanlı (kata) isə bürünc mükafata layiq görülüb. Böyüklərin yarışında Nuri Əliyev (-60 kq), Samir Məmmədov (-75 kq) və Əli Cəfərov (+84 kq) bürünc medal uğrunda həlledici görüşdə qələbəni əldən veriblər.

Turnirə fəxri qonaq kimi dəvət olunan Azərbaycan Milli Karate Federasiyasının prezidenti və Dünya Karate Federasiyası (WKF) Texniki Komitəsinin üzvü Yaşar Bəşirov idmançıları mükafatlandırma mərasimində iştirak edib.

Yarış karate üzrə yeniyetmə və gənclərdən ibarət milli komandamızın baş məşqçisi Anar Allahverdiyevin rəhbərliyi ilə oktyabrın sonunda Çilidə dünya çempionatına hazırlıq xarakteri daşıyıb.

# Karateçimiz debütdə qələbə qazanıb

Karate üzrə Azərbaycan milli komandasının uzun illər kapitanı olmuş Şahin Atamov Karate Combat "Evolution" peşəkar karate liqasında debütünü qələbə ilə başa vurub. Azərbaycan Karate Federasiyasından verilən məlumata görə idmançımız rəqibini birinci raundun 2-ci dəqiqəsində nokauta salıb. Liqada "Aslan" ləqəbi ("The Lion") ilə çıxış edən Şahin Atamovun ağır çəkidə (93 kq) rəqibi isə liqada birinci döyüşünü qələbə ilə başa vuran dominikanlı Xorxe Peres olub. Görüş sentyabrın 22-də ABŞ-ın Florida ştatında keçirilib. Qeyd edək ki, döyüşlər hər biri 3 dəqiqəlik 3 raunddan ibarətdir və mübarizədə aşırma fəndlər də tətbiq olunur. Karate Combat liqası dünyada ilk tam kontakt peşəkar karate liqasıdır, mənzil-qərargahı Nyu-Yorkda yerləşir. Liqanın 30-dan artıq ölkədən 100-dən çox tanınmış karateçi ilə müqaviləsi var və təşkilat yalnız titullu karateçiləri turnirə qəbul edir. Karate Combat təşkilatçıları yeni qaydalara görə çempiona "Qızıl kəmər" təqdim edəcək və döyüşçü kəmərini özü ilə apara biləcək.



# Teymur Rəcəbov dünya kubokunda növbəti mərhələyə yüksəlib

Xantı-Mansiyskdə şahmat üzrə dünya kubokunun 1/8 final mərhələsinin tay-breyk partiyaları oynanılıb.

Bu mərhələdə Azərbaycan şahmatçıları Teymur Rəcəbov və Şəhriyar Məmmədyarov qarşılaşıblar. Tay-breyk partiyasında şahmatçılarımız dörd görüş keçiriblər. Görüşün sonunda T.Rəcəbov 3,5:2,5 hesabı ilə S.Məmmədyarovu məğlub edərək 1/4 dörddəbir finala vəsiqə qazanıb. Şahmatçımızın dörddəbir final mərhələsindəki rəqibi ABŞ təmsilçisi Ceffери Xionq olacaq.

Xatırladaq ki, beş şahmatçımızın iştirak etdiyi dünya çempionatında Arkadi Naydiç almaniyalı Niklas Huşenbetə, Nicat Abbasov ABŞ təmsilçisi Leyner Dominqes Peresə, Eltac Səfərli isə Ş.Məmmədyarova məğlub olaraq, mübarizəni dayandırıblar.

Qeyd edək ki, dünya kubokunun finalına yüksələcək şahmatçılar 2020-ci ildə şahmat tacına iddiaçılar turnirində iştirak etmək hüququ qazanacaqlar.

FIDE prezidenti Arkadi Dvorkoviç bildirib ki, turnirin birinc mükafatçısı da təşkilatçıların xüsusi dəvətnaməsi olacağı halda belə bir hüquqa yiyələnə bilər.

Sentyabrın 10-da start götürən dünya kuboku turnirinə oktyabrın 4-də yekun vurulacaq. Sonuncu gün həlledici görüşlər üçün tay-breyk qarşılaşmaları nəzərdə tutulub. Turnirin mükafat fondu 1,6 milyon dollardır.



# Bədən Tərbiyəsi və İdman Akademiyasında qaçış təlimi keçirilib

Sentyabrın 21-də Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında Azərbaycanda aşağı ətrafları amputasiya olunmuş şəxslər üçün qaçış təlimləri keçirilib.

Azərbaycan Milli Paralimpiya Komitəsinin Almaniyanın "Ottobock" təşkilatı ilə əməkdaşlığı çərçivəsində keçirilən təlimdə almaniyalı mütəxəssis, qaçış üzrə ikiqat paralimpiya çempionu Henrix Papov aşağı ətrafları amputasiya edilmiş şəxslərə xüsusi protez qurğuları vasitəsilə təlim keçib. "Sağlam qaçış" adlı təlimdə biri qadın, biri isə uşaq olan 12 iştirakçı xüsusi idman protezləri sayəsində qaçış üzrə məşq edib, futbol, voleybol və basketbol idman növləri ilə məşğul olublar.

Xatırladaq ki, layihə bundan əvvəl London, Toronto, Sinqapur, Sidney, Vankuver, Malayziya şəhərlərində reallaşdırılıb. Aşağı ətrafı amputasiya olunan şəxslər xüsusi idman protezləri sayəsində qaçış idmanı ilə məşğul olmağı, hətta Paralimpiya Oyunlarına qatılmağı da bacarıblar.

# *Sumqayıt Şəhər Gənclər və İdman Baş İdarəsinin idman xronikası*

## Boks

Sumqayıt Gənclər evində Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə boks üzrə şəhərin tanınmış idmançıları, məşqçi-müəllimləri və ağsaqqalları ilə görüş keçirilib.

Sumqayıt şəhər Gənclər və İdman Baş İdarəsindən verilən məlumata görə tədbiri giriş sözü ilə açan Baş İdarənin rəisi Elgün Hümbətov əvvəlcə yüksək nailiyyətlər əldə etmiş idmançıları və onların məşqçilərini təbrik edib. O, son dövrlərdə Azərbaycanın idman növləri üzrə yığma komandalarının tərkibində Sumqayıt idmançılarının əldə etdiyi nailiyyətlərdən, şəhərdə görülən yenidənqurma, abadlıq və tikinti işləri haqqında tədbir iştirakçılarına məlumat verib. E.Hümbətov şəhərdə boks idman növü ilə məşğul olan və yüksək nəticələr əldə edən idmançılar və onların məşqçiləri haqqında danışaraq, bu idman növünün daha da inkişaf etdirilməsi üçün görüləcək işlər haqqında geniş məlumat verib. Daha sonra çıxış edən boks idman növü üzrə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü Məmməd Eyvazov, Afina-2004-ün bürünc medalçısı Fuad Aslanov, Pekin-2008-in bürünc medalçısı Şahin İmranov onlara göstərilən diqqət və qayğıya görə şəhər rəhbərliyinə, Gənclər və İdman Baş İdarəsinə öz minnətdarlıqlarını bildiriblər.

Sonda boks idman növü üzrə şəhərin yeni baş məşqçisi Elbrus Rzayev ictimayyətə təqdim olunub.

## Cüdo

Sentyabrın 21-22-də Paralimpiya İdman Kompleksində Sumqayıt şəhərinin 70 illik yubileyinə həsr edilmiş 2008-2009-cu illər təvəllüdlü oğlan və qızlar arasında cüdo üzrə komandalararası açıq şəhər birinciliyi keçirilib.

Sumqayıt şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə keçirilən yarışın açılış mərasimində çıxış edən Gənclər və İdman Baş İdarəsinin rəisi Elgün Hümbətov ölkəmizdə idmançılara göstərilən diqqət və qayğıdan danışıb.

Gərgin və maraqlı idman mübarizəsi şəraitində keçən yarışda qaliblərin adlarına aydınlıq gəlib. Yarışda ilk üç yeri tutan idmançılar Baş İdarə tərəfindən fəxri fərman, medal, kubok və hədiyyələrlə təltif olunublar.

## Dama

Sumqayıt 2 saylı Uşaq Gənclər İdman Şahmat Məktəbində şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə əlilliyi olan gənclər arasında Sumqayıt şəhərinin 70 illiyinə həsr olunmuş dama üzrə turnir keçirilib.



Tədbirdə çıxış edən Baş İdarənin rəisi Elgün Hümbətov turnirin Sumqayıt şəhərinin 70 illiyinə həsr edildiyini bildirib. O, turnirin gənclərin dünya görüşünü, intellektual səviyyəsini, zehni inkişafını stimullaşdırmaq, asudə vaxtlarını səmərəli təşkil etmək məqsədilə keçirildiyini diqqətə çatdırıb.

Gərgin mübarizə şəraitində keçən fərdi yarışlarda Nərmin Rzalı birinci yerə layiq görülüb. Vəfa Pirməmmədova və Xəyalə Səfərova isə müvafiq olaraq, ikinci, üçüncü yerləri tutublar. Komanda yarışlarında birinci yerə "Gənc Sumqayıt" komandası sahib çıxıb. "Sumqayıt 70" komandası ikinci, "Kimyaçılar komandası" isə üçüncü yerə layiq görülüb.

Qaliblərə Baş İdarənin fəxri fərman, kubok, medal və hədiyyələri təqdim olunub.



# Paytaxt çempionatının qalibləri müəyyənləşib

Sentyabrın 21-də kross qaçışı üzrə paytaxt çempionatına yekun vurulub. Bakı Dövlət Cıdır Meydanında keçirilən çempionatda 100-ə yaxın atlet 8 məsafə üzrə mübarizə aparıb. Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin və Azərbaycan Atletika Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən yarışda 10-dək idman klubu təmsil olunub.

Qızlar arasında kross yarışında Samirə Cəbrayılzadə (1 km), Günel Manafova (2 km) və Anna Yusupova (6 km) birinci olublar.

Oğlanların yarışında isə Mahmud Mehdiyev (2 km), Nadir Əliyev (3 km), Eldar Qəzənfərov (6 km) və Elman Abışov (10 km) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Bu yarış oktyabrda Cəlilabadda keçiriləcək respublika çempionatına hazırlıq xarakteri daşıyır.

# "Olimpiya ümidləri" xatirə turnirində iştirak edəcəklər

Sentyabrın 27-29-da Azərbaycanın Milli Qəhrəmanı, tankçı Albert Aqarunovun anadan olmasının 50 illik yubileyinə həsr edilən ənənəvi beynəlxalq karate turniri keçiriləcək.

"Olimpiya ümidləri" adlandırılan turnirdə 6-13 yaşlı karateçilər mübarizə aparacaqlar.




Gənclər və İdman Nazirliyinin, Azərbaycan Karate-Do Federasiyaları Assosiasiyasının və Azərbaycan Milli Karate Federasiyasının birgə təşkilatçılığı ilə baş tutacaq beynəlxalq xatirə turniri "Sərhədçi" Olimpiya İdman Mərkəzində keçiriləcək. Turnirin təntənəli açılış mərasimi sentyabrın 28-də olacaq.

Xatirə turnirinə beynəlxalq hakimlər də dəvət ediləcəklər. Yarışda 10-dan artıq ölkəni təmsil edən idmançıların iştirakı gözlənilir.

# Cüdo hakimlərinin fiziki hazırlığı yoxlanılıb

Cüdo üzrə Azərbaycan çempionatlarına və respublika miqyaslı yarışlara təyinat alan hakimlər fiziki hazırlıq üzrə test veriblər.

Testlərə Azərbaycan Cüdo Federasiyası Hakimlər Komitəsinin sədri, beynəlxalq dərəcəli hakim Mətin Rəhimli nəzarət edib.

Qeyd edək ki, testlər Olimpiya Stadionunda və burada yerləşən Cüdo Təlim-Məşq Bazasında götürülüb.



## FHN-in İdman-Sağlamlıq Mərkəzində idmançılarla görüş olub

Azərbaycan Taekvondo Federasiyasının təşkilatçılığı ilə Abşeron Olimpiya İdman Kompleksində taekvondo üzrə gənclər arasında "Vl Koreya Səfiri Kuboku" yarışları keçirilib.

Fövqəladə Hallar Nazirliyi İdman-Sağlamlıq Mərkəzindən "Olimpiya dünyası" qəzetinə verilən məlumatda bildirilir ki, yarışlarda Bakı, Sumqayıt və respublikanın müxtəlif bölgələrindən 15 komandadan 100-dən çox idmançı iştirak edib. Fövqəladə Hallar Nazirliyi İdman-Sağlamlıq Mərkəzinin komandası yarışlarda mərkəzin fiziki hazırlıq şöbəsinin inspektoru, Avropa çempionu Elvin Məmmədovun rəhbərliyi altında iştirak edib.

Yarışlarda uğurlu çıxış edən mərkəzin taekvondoçusu Eltac Qafarov 68 kiloqram çəki dərəcəsində bütün rəqiblərini məğlub edərək qızıl medal qazanıb.

FHN-in İdman-Sağlamlıq Mərkəzinin rəisi Füzuli Musayev idmançı və məşqçilərlə görüşərək onları təbrik edib, növbəti yarışlarda uğurlar arzulayıb.

## Millimiz reytinqində mövqeyini qoruyub

Beynəlxalq Basketbol Federasiyası (FİBA) kişi basketbolçulardan ibarət milli komandaların reytinq siyahısını



açıqlayıb. Cədvəldə 164 yığma yer alıb. Yeni başa çatan dünya çempionatı siyahıda bir sıra dəyişikliklərə səbəb olub. Yalnız 13 komandanın mövqeyi dəyişməz qalıb. Azərbaycan millisi də bu yığmalardan biridir. Hesabında 91,2 xal olan komandamız dünyanın 103-cüsüdür. Basketbolçularımız Avropa zonasında 45-ci pillədə yer alıb.

Azərbaycan yığması mövqeyini qorusa da, 4 komandanı - Tailand, Əlcəzair, Honkonq və Bermud adalarını keçib. Əvəzində İrlandiya, Qayana, Honduras və Səudiyyə Ərəbistanı artıq millimizdən öndədir.

Qeyd edək ki, reytinq cədvəlinin lideri ABŞ yığmasıdır - 786,4. İspaniya 731,5 xalla ikinci, Avstraliya 673,6 xalla üçüncüdür.

## *Azərbaycan idmançıları dünya çempionatında iştirak edəcəklər*

Sentyabrın 28-dən oktyabrın 6-dək Türkiyənin Antalya şəhərində yeniyetmə və gənclər arasında muay-tay idmanının ifma versiyası üzrə dünya çempionatı keçiriləcək.

Çempionatda Azərbaycanı 16 idmançı və 2 hakim təmsil edəcək. Milli komandamız mundialda federasiya prezidenti Azər Həsənsoyun və böyük məşqçi Fəxri Əliyevin rəhbərliyi ilə mübarizə aparacaq.

## Sinqapur trasındakı məşhur döngə ləğv edilə bilər

Sinqapur trasının konfiqurasiyası 2022-ci ildə dəyişdirilə bilər.

Bir neçə il sonra Sinqapurda inşaat işləri planlaşdırılır, nəticədə trasın 16-cı döngədən 19-cu döngəyədək olan hissəsi ləğv edilə bilər. İnşaat işləri zamanı bu dörd döngənin yerinə uzun düz yol çəkiləcək. Pilotlar 15-ci döngədən birbaşa 20-ci döngəyə yollanacaqlar

Beləliklə, 2022-ci ildə məşhur 17-ci döngə də götürülə bilər. Qeyd edək ki, 2008-ci ildə burada oğul Nelson Pikenin bolidi qəzaya uğrayıb. Bu qəza qəsdən törədilib ki, Fernando Alonsonun 2008-ci il mərhələsində taktiki qələbəsi təmin olunsun. Nəticədə "Reno" komandasının rəhbərləri Flavio Briatore və Pet Simmonds Formula 1-dən uzaqlaşdırılıblar.

* * *

Formula 1 çempionatında yay fasiləsi zamanı məlumat yayılmışdı ki, "Pantera" adı altında yeni komanda Böyük Britaniya Qran-Prisinin keçirildiyi "Silverstoun" yaxınlığında məskunlaşmağı planlaşdırır.

Komandanın rəsmi şəkildə "Panthera Team Asia F1" adlanacağı aydın olub.

"Pantera"nın yaradıcılarından biri rusiyalı biznesmen Boris Rotenberqin başçılıq etdiyi "SMP Racing" layihəsinə cəlb edilən Benjamin Dürandır.

"Bizim hədəfimiz 2021-ci ildə Formula 1 yarışlarında iştirakdır", - deyə, Düran təsdiqləyib.



Xəbər verilir ki, "Pantera"da "Renault" komandası ilə əməkdaşlıq etmək və reqlament çərçivəsində "Ferrari"dən detallar alan "Haas"ın biznes modelini nümunə kimi götürmək niyyətindədirlər.

Eyni zamanda, Formula 1 çempionatının idman direktoru Ross Braun məhz 2021-ci ildə - yeni reqlamentin qüvvəyə mindiyi birinci ildə yeni komandaları yarışa cəlb etmək niyyətində deyil.

"Bizi maraq göstərən komandaların sayı təəccübləndirib. Lakin onlara belə dedik: "Gəlin, əvvəlcə yeni qaydaları tətbiq edərək vəziyyəti sabitləşdirək, daha sonra isə yeni komandalar axtarmağa başlayaq"", - deyə, R.Braun bildirib.

**Maraqlıdır**

# "Yarım əsrdən çoxdur ki, qorxaqlar hokkey oynamır"



*Hokkey üzrə SSRİ milli komandası 1971-ci ildə dünya çempionatında iştirak etmək üçün İsveçrəyə uçmuşdu.*

Komandanın ilk rəqibi Finlandiya yığması idi. Hokkeyçilər soyunub-geyinmə otağında növbəti periodun başlanmasını, məşqçilər isə bağlı qapı arxasında meydana çıxacaq hokkeyçiləri gözləyirdilər. Həmin vaxt baş məşqçi Arkadi Çernışevin köməkçisi Anatoli Tarasov "Qara qarğa" mahnısını oxumağa başladı. Komanda bir neçə dəqiqədən



sonra buzun üzərinə atıldı. Komanda sanki bu mahnıdan ruhlanmışdı. Gərgin və maraqlı oyun başladı. Birinci perioddan sonra hesab bərabər idi. Növbəti periodda rəqib qapısına 7 qol vuraraq, cəmi 1 top buraxdılar.

Həmin vaxt hokkeyin özünəməxsus mahnısı var idi. Lakin Tarasovun oxuduğu "Qara qarğa" mahnısı qısa zaman ərzində əfsanəyə çevrildi. Bu mahnının tarixçəsi hələ 1971-ci ildə SSRİ-də keçirilən dünya çempionatından 3 il əvvələ gedib çıxır. Mahnını Sergey Qrebennikovun köməkliyi ilə sovet musiqisinin tanınmışlarından olan Aleksandra Paxmutova və Nikolay Dobronravov cütlüyü oxumuşdu.

Bu barədə A.Paxmutova öz xatirələrində belə deyirdi: "Sovet hökumətinin yüksəliş dövründə biz "qorxaq" sözü ilə başlayan bir mahnı bəstələdik. Kanadalılara qalib gələn millimizin məşqçilərilə çox gec tanış olduq. Səbəb komandamızın keçirdiyi görüşün xeyli gec göstərilməsi idi. Məlumdur ki, həmin vaxt indiki kimi, canlı yayım və internet yox idi. Mətni yığdığım zaman mənə ilham verən buz üzərindəki döyüş oldu. Həmin anları danışılan söhbətlərdən sonra təsəvvürümə gətirdim. Elə həmin məqamda ağlıma belə bir ifadə gəldi: "Qorxaq hokkey oynamır". Məhz həmin bu sözdən də mahnı yarandı."

Həmin il Aleksandra Paxmutova Sovet idmançıları üçün bir neçə xit musiqilər yazdı: Siz indiki nəsil o mahnıları inanmıram ki, eşidə: "Sonuncu ötürmə", "Top və şayba", "Maryaçis səninlə oxuyur" və "Meksika ulduzu" (Olimpiada - 1968). Bu mahnılardan sonra sovet musiqisində idman himni hökmranlıq edirdi. Bunlardan, "Özünüzü sərtləşdirin" və "Bütün bacarıqlara, sərtliyə, təlimə ehtiyac duyulur" kimi mahnıları misal göstərmək olar. Bu mahnıları ifa edənləri də yəqin ki, çox az insan tanıyır. (Lebedeva - Kumaça və Solovyeva - Sedoqo) Dunayevin "İdman marşında" Sovet idmançılarının gülüş səsləri də öz əksini tapmışdı. Bütün bu mahnılar 90-cı illərdə tədricən yaddaşlardan silinməyə başladı. Təkcə "Qorxaq hokkey oynamır" mahnısından başqa.

### "Mulermanın əvəzinə Eduard Hil"

Bu mahnını ilk dəfə Vadim Mulerman ifa etmişdi. Nədənsə mahnını Eduard Hillə əlaqələndirirdilər. Həqiqətən də, Mulermanın ifası uğurlu alınmadığı üçün yazılmış video-yazını sonralar tapmaq mümkün olmadı. O, eyni vaxtda öz repertuarına qadağan olunmuş bir neçə yəhudi mahnısı əlavə etmişdi. Buna görə onun efirə gedən bütün yolları bağlanmışdı. Daha sonralar isə dövlət strukturunda yer alan tanışların köməkliyi ilə Mulermana "bəraət" verildi. Amma onu hokkey mövzusundan həmişəlik uzaqlaşdırdılar. Ona görə də hokkey meydançalarında Mulermanın əvəzinə Eduard Hilin ifası səslənirdi.

Məşhur Sovet hokkeyçisi, üçqat Olimpiya çempionu Vladislav Tretyak da mahnı barədə öz fikirlərini bildirmişdi. Əfsanəvi qapıçı deyirdi: ""Qorxaq hokkey oynamır" mahnısını tezliklə hamı -həm azarkeşlər, həm də hokkeyçilər sevdi. Bu, ona görə xoşumuza gəlmişdi ki, mahnı idmançını döyüşə, mübarizəyə səsləyir, rəqibi döyüşə çağırır və idmana həvəsi oyadırdı. Əlbəttə ki, Nikolay Dobronravovun yazdığı sözlər mahnını titrətmişdi."

### "Hokkeyçilərin hörməti kosmonavtlardan az deyildi"



1971-ci ildə Hilin repertuarına hokkey idmanı ilə bağlı mahnı da əlavə edilmişdi. Baxmayaraq ki, o hokkeyə heç bir maraq göstərmirdi. Lakin Hil futbolu yüksək dərəcədə sevirdi. Onun aktyorluq istedadı onu bütün vəziyyətlərdən onu asanlıqla çıxarırdı. İzləyicilər onun hokkeyə olan sevgi dolu səmimi gözlərinə inanır və onu "hokkeyin səsi" adlandırırdılar. Daha sonralar isə dənizçilər üçün ifa etdiyi "Ah, dəniz, dəniz" mahnısında özünü tapdı.

Hokkey hər yerdə idi. Televizor göstərir, radioda şərəfinə mahnılar səsləndirilir və haqqında qəzetlərdə səhifə-səhifə yazılar dərc olunurdu. Komandanın qapıçısı Dmitri Tretyak deyirdi: "O vaxtkı hokkeyçilərin hörməti kosmonavtlardan az deyildi. Hər birimizi ayrı-ayrılıqda tanıyırdılar. Hamı Vsevolod Bobrovu, Yevgeni Babiç, Viktor Şuvalovu və heyətin digər üzvlərini sevib, dəstəkləyirdi."

### "Okeanın o tayından gələn oxşar melodiya"

Heç vaxt hokkey oynamayan sovet vətəndaşları bu mahnının düzgün yazılmadığını deyirdilər. Onlar elə düşünürdülər ki, qorxaqlara aid yazılmış mahnı onların hokkey oynamadıqlarına görə hər birinə aiddir. Hətta partiya məmurları həmin vaxtı Həmkarlar İttifaqına rəsmi etiraz da bildirmişdilər.

Bütün bunlara baxmayaraq mahnının bu qədər sevilməsinə heç nə mane ola bilmədi. Azarkeşlər meydançada "İlin mahnısı"nı böyük həvəslə ifa edib, bundan zövq alırdılar. Demək olar ki, bu mahnını ifa etmək bütün müğənnilərin arzusuna çevrilmişdi. Ən əsası o idi ki, "Qorxaq hokkey oynamır" cümləsi davamlı ifadəyə çevrildi. Bu, bütün xalqın sevgisi idi.



Yeri gəlmişkən bildirək ki, bu mahnının musiqisinin azacıq oxşarı Kanada da yazılmışdı. Musiqinin sözsüz olmasına baxmayaraq, kifayət qədər populyarlıq qazanmasına heç nə mane olmadı. Hətta mahnıya qeyri-rəsmi dövlət himni statusu da vermişdilər.

Sovetin "Qorxaq hokkey oynamır" mahnısı ilə Kanadanın melodiyasında qəribə oxşarlıqlar mövcud idi. Hər iki musiqi 1960-cı ilin sonlarında, eyni vaxtda, eyni yaş həddində olan qadınlar tərəfindən yazılmışdı. Kanadalı Dolores Klaman 1927-ci ildə, rusiyalı Aleksandra Paxmutova 1929-cu ildə doğulmuşdu.

2008-ci ildə Kanadada "Hokkey mövzusu" CBC-ə məxsus idi. Mahnı Kanadanın məşhur "Hockey Night in Canada" verilişinin əsas profilində səsləndirilirdi. Daha sonralar isə rəqib CTV kanalı Vankuverdə keçirilən Olimpiadada mahnının səsləndirilməsi hüququnu əldə etdi. Bu hadisə izləyici narazılığına və qəzəbə səbəb oldu. Deyilənə görə, etiraz və qəzəb bu gün də davam etməkdədir.

Bir məsələ var ki, bu günə qədər "Qorxaq hokkey oynamır" mahnısı yarım əsrdir ki, sözləri olduğu kimi dəyişdirilmədən səsləndirilir.

***Hazırladı: Anar Əhmədov***

# FUTBOL

## Transfer pəncərəsinin yeni sakinləri

*(əvvəli ötən sayımızda)*

Qəzetimizin bundan əvvəlki sayında “böyük beşlik” ölkələrindən sayılan İspaniya La Liqasında klubların transfer siyahısını oxucularımıza təqdim etmişdik. Bu dəfəki sayımızda isə oxucular İtaliya A seriyasında çıxış edən klubların yay transfer pəncərəsində həyata keçirdiyi transferlərlə bağlı ətraflı məlumat əldə edəcəklər. Yazıya, əvvəlcə, son illərdə ardıcıl olaraq 7 dəfə İtaliya A seriyasının qalibi olan “Yuventus”la başlayaq. Çempionlar Liqasının ikiqat qalibləri bu il Avropanın ən nüfuzlu klub turnirinin qalibi olmaq üçün növbəti dəfə cəhd edəcək. Keçən mövsüm Çempionlar Liqasının 1/4 finalında “Ayaks”a məğlub olaraq mübarizəni dayandıran turinlilər bu il heyətini bir sıra futbolçularla gücləndiriblər. Şübhəsiz ki, klubun ən uğurlu transferlərindən biri elə keçən il “qoca sinyora”nı 67-ci dəqiqədə vurduğu qolla Çempionlar Liqasından uzaqlaşdıran Mateys de Liqtdir. Bu, Turin təmsilçisinin tarixində ilk belə hadisə deyil. Belə ki, “Yuventus” 2 il bundan əvvəl ÇL-in yarımfinal mərhələsində məğlub olduqları “Real”ın futbolçusu Kriştianu Ronaldonu da 90 milyon avro müqabilində heyətinə cəlb etmişdi. Maraqlıdır ki, həmin görüşdə “Qoca Sinyora” “Kral klubu”na məhz Ronaldonun 97-ci dəqiqədə vurduğu qolla uduzmuşdu. Yəni “Yuventus” klubunun rəhbərliyi Çempionlar Liqasında onları hansı komandanın futbolçusu mübarizədən kənarlaşdırırsa, məhz həmin futbolçuya mövsümün sonunda “öz köynəyini geyindirməyə” çalışır.

Klub bundan başqa Danilo, Romero və Rabiot kimi futbolçuları da heyətinə cəlb edib. “Yuventus” klubunun rəhbərliyi bundan başqa transfer pəncərəsinin son günlərində PSJ-də çıxış edən əfsanəvi qapıçısı Canluici Buffonu da komandasına geri qaytarıb.

Ötən mövsüm Çempionlar Liqasında qrupda qalan və İtaliya A seriyasında 4-cü olan “İnter” bu uğursuzluğu aradan qaldırmaq üçün heyətinə güclü futbolçular cəlb edib. Milan təmsilçiləri Sançes, Lukaku, Lazaro və Politano kimi oyunçuların transferini həyata keçiriblər. Bundan başqa İvan Perişiç və Mauro İkardi klubdan gediblər. Perişiç Almaniyanın “Bavariya” klubuna, İkardi isə icarə əsasında “qızıl qəfəs” adlanan PSJ-yə keçib.

Milanın eyniadlı klubu da əvvəlki əzəmətini geri qaytarmaq üçün yay transfer pəncərəsindən istifadə etməyə çalışıb. “Rossonyerlər” Lean, Kessi, Ernandes, Bennaseri heyətinə cəlb ediblər. Paytaxt təmsilçisi “Roma” da Smollinq, Spinatsola, Kristante kimi futbolçularla heyətini gücləndirib. Lakin buna baxmayaraq, “canavarlar” yeni mövsümdə hələ ki, ümidləri doğrulda bilmirlər.

*(ardı var)*




## İtaliya A seriyası 2019-2020

| Komanda | Gələnlər | Qiyməti (avro) | Gedənlər | Qiyməti (avro) |
|---|---|---|---|---|
| Yuventus | De Liqt (Ayaks) | 85,5 mln. | Kanselu (M. Siti) | 65 mln. |
| | Danilo (M.Siti) | 37 mln | Kin (Everton) | 27,5 mln. |
| | Romero (Cenoa) | 26 mln. | Spinatsola (Roma) | 30 mln. |
| | Pelleqrini (Roma) | 22 mln. | Audero (Sampdoriya) | 20 mln. |
| | Demiral (Sassuolo) | 18 mln. | Sturaro (Cenoa) | 16,5 mln. |
| | Remsi (Arsenal) | sərbəst agent | Orselini (Boloniya) | 15 mln. |
| | Buffon (PSJ) | sərbəst agent | Çerri (Kalyari) | 9 mln. |
| | Rabio (PSJ) | sərbəst agent | Favilli (Cenova) | 7 mln. |
| | | | Marrone (Verona) | 1 mln. |
| | | | Bartsali | bitirib |
| | | | Rojerio (Sassuolo) | 6 mln. |
| | | | Mankuzo (Empoli) | 5 mln. |
| | | | Romero (Cenoa) | icarə |
| Napoli | Lozano (PSV) | 38 mln. | Diavara (Roma) | 21 mln. |
| | Manolas (Roma) | 36 mln. | Albiol (Vilyarreal) | 5 mln. |
| | Meret (Udineze) | 22 mln. | İnsine (Benevento) | 1,5 mln |
| | Elmas (Fənərbaxça) | 16 mln. | Lasitski (Poqon) | icarə |
| | Di Lorenso (Empoli) | 8 mln. | İnqleze (Parma) | icarə |
| | Ospina (Arsenal) | 3.5 mln. | | |
| | Karnezis (Udineze) | 2,5 mln. | | |
| Atalanta | Malinovski (Genk) | 13,7 mln. | Kessi (Milan) | 24 mln. |
| | Muriyel (Sevilya) | 15 mln. | Kristante (Roma) | 21 mln. |
| | Varne (Çittadella) | 5 mln. | Petaniya (SPAL) | 12 mln. |
| | Şkrtel (Fənərbaxça) | sərbəst agent | Almiçi (Verona) | 0,5 mln. |
| | Arana (Sevilya) | icarə | Mançini (Roma) | icarə |
| | | | Matello (Kalyari) | icarə |
| Inter | Sançes (M.Yunayted) | icarə | Perişiç (Bavariya) | icarə |
| | Lukaku (M.Yunayted) | 65 mln. | Vanheusden (Standard) | 13 mln. |
| | Lazaro (Herta) | 22 mln. | Radu (Cenoa) | 8 mln. |
| | Politano (Sassuolo) | 20 mln | Adorante (Parma) | 5 mln. |
| | Salsedo (Cenoa) | 8 mln. | Sala (Sassuolo ) | 5 mln. |
| | Brazao (Parma) | 6,5 mln. | Ansaldi (Torino) | 2,5 mln. |
| | Sensi (Sassuolo) | arenda | Manay (Albasete) | 2 mln. |
| | Qodin (Atletiko) | sərbəst agent | Lombardoni (Cenoa) | 2,5 mln. |
| | Barella (Kalyari) | icarə | Suare (Cenoa) | 2,5 mln. |
| | Radu (Cenoa) | 12 mln. | Romano (Cenoa) | 2,5 mln. |
| | Aqume (Soşo) | 4,5 mln. | Ritso (Cenoa) | 2,5 mln. |
| | Biraqi (Fiorentina) | icarə | Qravilon (Sassuolo) | icarə |
| | | | Karamo (Parma) | icarə |
| | | | İkardi (PSJ) | icarə |
| Milan | Lean (Lill) | 30 mln | Kutrone (Vulverhempton) | 18 mln. |
| | Kessi (Atalanta) | 24 mln. | Lakatelli (Sassuolo) | 10 mln. |
| | Ernandes (Real) | 20 mln. | Abate (Cenoa) | sərbəst agent |
| | Bennaser (Empoli) | 16 mln. | Montolivo (Cenoa) | sərbəst agent |
| | Kruniç (Empoli) | 8 mln. | Sapata (Cenoa) | sərbəst agent |
| | Duarte (Flamenqo) | 11 mln. | Bertolaççi (Hayduk) | 0,5 mln. |
| | | | Mauri (Hayduk) | 0,5 mln. |
| | | | Simiç (Hayduk) | 0,5 mln. |
| Roma | Smollinq (M.Yunayted) | icarə | Monolas (Napoli) | 36 mln. |
| | Spinatsolo (Yuventus) | 29,5 mln. | Pelleqrini (Yuventus) | 22 mln. |
| | Kristante (Atalanta) | 21 mln. | Herson (Flamenqo) | 11,8 mln. |
| | Lopes (Betis) | 23,5 mln. | El Şaaravi (Şanxay Şenxua) | 16 mln. |
| | Diavara (Napoli) | 21 mln. | Ponçe (Spartak) | 3 mln. |
| | Mançini (Atalanta) | icarə | Markano (Portu) | 3 mln. |
| | Veretu (Fiorentina) | icarə | Romanoli (Spartak) | 2 mln. |
| | Çetin (Gənclərbirliyi) | 3 mln. | Sadik (Partizan) | icarə |
| | Zapakosta (Çelsi) | icarə | De Rossi (Boka Xuniors) | sərbəst agent |
| | | | Verde (AEK) | 1 mln. |
| Latsio | Ladzari (SPAL) | 11 mln. | Netu (Vulverhempton) | 18,3 mln. |
| | Vevro (Kopenhagen) | 10,5 mln. | Jordau (Vulverhempton) | 9,2 mln. |
| | Netu (Braqa) | 8,5 mln. | Sprokati (Parma) | 2,3 mln. |
| | Jordau (Braqa) | 4,5 mln. | Kaseres (Karpatı) | icarə |
| | Adekane (Liverpul U-23) | sərbəs tagent | Mohamed (Karpatı) | icarə |
| | Honi (Malaqa) | 2 mln. | Murqia (SPAL) | 3,5 mln. |
| | Karo (Appolon) | 160 mln. | Badel (Fiorentina) | icarə |
| | Dziçek (Pyast) | 2 mln. | | |

## “Qarabağ” qrup mərhələsinə məğlubiyyətlə başladı

“Qarabağ” UEFA Avropa Liqasının qrup mərhələsində ilk oyununu keçirib.

Qurban Qurbanovun baş məşqçisi olduğu komanda İspaniyanın “Sevilya” klubunu qəbul edib. Tofiq Bəhramov adına Respublika Stadionundakı qarşılaşma Ağdam təmsilçisinin 0:3 hesablı məğlubiyyəti ilə yekunlaşıb. “Sevilya”nın heyətində Xavyer Ernandes 62-ci dəqiqədə hesabı açıb. “Çiçarito” ləqəbli meksikalı hücumçu cərimə zərbəsini dəqiq yerinə yetirib. 78-ci dəqiqədə isə Munir Əl Həddadi qapıçı Asmir Beqoviçlə təkbətəkdən qalib ayrılıb. 85-ci dəqiqədə isə Oliver Torres fərqi daha da artırıb.

Qeyd edək ki, “Qarabağ” qrup mərhələsindəki növbəti matçını səfərdə keçirəcək. Ağdam təmsilçisi oktyabrın 3-də Lüksemburqda “Düdelanj”ın qonağı olacaq.



## Tanınmış futbolçu karyerasını bitirdi

Bolqarıstan millisinin sabiq üzvü Dmitar Berbatov karyerasını başa vurub.

Bunu 38 yaşlı veteran hücumçu sosial şəbəkə hesabında açıqlayıb. Bir ildən artıqdır klubsuz olduğunu xatırladan D.Berbatov getməyin vaxtı olduğunu bildirib.




Qeyd edək ki, Bolqarıstan millisinin bombardiri olan (48 qol) Dmitar Berbatov “Bayer”, “Tottenhem”, “Mançester Yunayted”, PAOK kimi klublarda çıxış edib.

## Fransada Liqa Kuboku ləğv olunur

Fransa Futbol Liqası Liqa Kubokunu keçirməkdən imtina edib.

Qurum növbəti ildən etibarən bu yarışı təşkil etməyəcək.

1994-cü ildən bəri hər mövsüm keçirilən turnirdə I və II divizionun klubları, həmçinin 3-cü liqanın bəzi təmsilçiləri iştirak edirlər. Kubokun sonuncu sahibi “Strasburq”dur. PSJ isə bu turnirin ən çox - 5 dəfə qalibi olan komandadır.

Bildirilib ki, bu qərar bir mövsümdəki oyunların sayını azaltmağa və futbolçuların sağlaması üçün vaxt qazandırmağa imkan verəcək.



# Dünya - idmanı




## Messi geyim brendini yaratdı

"Barselona"nın argentinalı ulduzu Lionel Messi öz şəxsi geyim brendini yaradıb.

O, bacısı Mariya Sol və məşhur dzayner Tommi Hilfiqerin bacısı Cinni Hilfiqerlə birlikdə layihənin marka meneceri olub.

Artıq "Messi" adlı geyim markasının ilk kolleksiyası satışa çıxarılıb.

## Xərçəngə qalib gələn üzgüçü

Amerikalı üzgüçü, 37 yaşlı Sara Tomas La-Manş boğazını dörd dəfə fasiləsiz olaraq üzüb keçən ilk insan kimi tarixə düşüb.

Fransadan üzməyə başlayan idmançı dayanmadan 54 saat üzərək İngiltərənin Dover limanına çatıb. O, sol ayağında qıcolma hiss etsə də, məsafəni uğurla başa çatdırıb.

Sahilə çıxan üzgüçü BBC-yə açıqlamasında deyib: "Çox yoruldum. Bunu bacardığıma inana bilmirəm".

Sara Tomas bu qələbəsini xərçəng xəstəliyindən əziyyət çəkən və ona qalib gələn insanlara həsr etdiyini deyib. Amerikalı marafon üzgüçüsünə 2017-ci ildə xərçəng diaqnozu qoyulub. O, bir il davam edən müalicədən sonra bu xəstəliyə qalib gəlib. Sara Tomas bundan əvvəl 2007-ci, 2012-ci və 2016-cı illərdə La-Manş boğazını üzərək keçib.



Fransa ilə Böyük Britaniyanı ayıran La-Manş boğazı Şimal dənizini Atlantik okeanı ilə birləşdirir. Uzunluğu 558 kilometr olan boğazın eni 33,3 kilometrdən 240 kilometrədək dəyişir.



*Üfüqi:*

**1.** Qış Olimpiya Oyunlarına ev sahibliyi edən Yaponiya şəhəri, **6.** Tokio-2020 Yay Olimpiya Oyunlarına ilk vəsiqəni qazanan güləşçimiz, **8.** Azərbaycan Premyer Liqasında çıxış edən klub, **9.** Qeyri-adi saç düzümü olan kolumbiyalı futbolçu, **10.** Ölkə, şəhər və klub, **11.** Formula 1 yarışında çıxış edən komanda, **15.** Şahmatda gediş, **16.** "Valensiya"nın ev matçlarını keçirdiyi stadion.

*Şaquli:*

**2.** İspaniya Sequndasına düşən favorit, **3.** "Qalatasaray"ın fanatları, **4.** Basketbol üzrə İspaniya millisinin oyunçusu Pol..., **5.** "Vaşinqton Kapitals"ın rusiyalı ulduzu, **7.** Türkiyədə nəşr olunan idman qəzeti, **12.** Heç bir iddiası olmayan komanda, **13.** Belçikalı futbolçu ... Hazard, **14.** Uels çempionatında çıxış edən klub, **17.** Tailandda şəhər, **18.** DÇ-2006-da çempion olmuş komandanın kapitanı.

## Həbib Nurməhəmmədovdan 100 min dollarlıq yardım

MMA üzrə yüngül çəki dərəcəsində UFC çempionu olan Həbib Nurməhəmmədov son döyüşdə məğlub etdiyi Dastin Poryenin xeyriyyə fonduna 100 min dollar köçürüb. Rusiyalı idmançının bu addımı barədə ABŞ döyüşçüsünün özü məlumat verib. D.Porye bildirib ki, H.Nurməhəmmədov bu məbləği "Good Fight Foundation"un hesabına köçürüb. Bu fond Uqandada içməli su quyusunun tikintisi ilə məşğuldur. Qeyd edək ki, H.Nurməhəmmədov sentyabrın 7-də BƏƏ-nin paytaxtı Abu-Dabidə keçirilən UFC-242-də D.Poryeni 3-cü raundda məğlub edib.

## *"İstəyirəm ki, qismən olsa, öz borcumu qaytarım"*



Portuqaliya millisinin və "Yuventus"un hücumçusu Kriştianu Ronaldo uşaqlıq həyatı haqqında danışıb.

"The Sun" nəşrinin məlumatına görə, o, bu zaman həssas məqamlara toxunub. Ronaldo deyib: "11-12 yaşım olanda ailəmizin pulu yox idi. Biz - mən və "Sportinq"in digər yetirmələri bir yerdə yaşayırdıq. Ailəmi ayda üç dəfə görürdüm. Bu, çox çətin idi. Saat 22.30-23.00 arasında biz acırdıq. Stadionumuzun yanında isə "Makdonalds" var idi. Biz oranın qapısını döyüb soruşurduq: "Sizdə hansısa burger var?" Orada həmişə Edna adında bir qadın və iki qız olurdu. Bizə pulsuz burger verirdilər. Mən daha sonra onları heç vaxt görmədim. Portuqaliyada olanda onları axtardım. Amma həmin "Makdonalds" artıq bağlanmışdı. Ümid edirəm ki, bu müsahibə vasitəsi ilə onları taparam. Belə olsa, çox sevinərəm. Onları Turinə, yaxud Lissabona dəvət etmək və birgə yemək yemək istəyirəm. İstəyirəm ki, qismən də olsa, öz borcumu qaytarım".


## olimpnews.az - sizin saytınız





Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-74-19